



# YAPONİYA VERGİ SİSTEMİ

Yaponiya vergi sistemi çox "mülayimdir". Burada uzun müddətdir ki, orta və kiçik biznesə böyük imtiyazlar mövcuddur. Üstəlik yerli əhali digər millətlərin adətlərinə çox böyük hörmət və həssaslıqla yanaşır. Bu da öz növbəsində mürəkkəb dilə baxmayaraq, ölkəni imiqrasiya baxımından cəlbedici edir.



Yaponiya – dünyada ən aşağı faizlə ƏDV tətbiq edilən ölkədir (cəmi 5%). Ölkə hakimiyyətinin ƏDV səviyyəsinin qaldırılmasında zəruriyyət olduğunu dəfələrlə vurğulasa da, o hələ ki dəyişilməz qalıb. Yuxarıda kiçik və orta biznes üçün imtiyazların olmasını da qeyd etdik. Onlar firmanın ilk illərində daha çox tətbiq edilir. Bunula bərabər daha iri şirkətlər ildə 42 faiz mənfəət vergisi ödəyir. Fiziki şəxslərin gəlir vergisinə gəldikdə, onlar daha da xoşyönülüdür: əgər insanın vergi ödəməyə imkanı yoxdursa, ona 5 ilədək möhlət verilir.

Vergilər Yaponiyada ən çox müzakirə olunan mövzulardandır. Burada çoxlu sayda kitablar, jurnallar dərc edilir. Əhali vergilərin hara yönəldiyi haqda çox geniş şəkildə məlumatladırılır. Paralell olaraq vergi ödəmələrinin vacibliyi barədə məlumat verilir. Vergi yığımında əsas problem – onun mürəkkəbliyidir. Burada 30 növ yerli və 25 dövlət vergisi mövcuddur. Hər bir bölgə öz vergi növünü və dərəcəsini təyin edə bilər. Məsələn, Tokioda sahibkarlıq vergisi 12 faiz olduğu halda, əyalətlərdə 3-6 % ola bilər. Minimal əmək haqqı və xəstəlikdən müalicəyə xərclənmiş vəsaitlər vergiyə cəlb olunmur. Yaponiyada əməksevərlik xüsusi dəstəklənir. Hər iki üzvü işləyən ailə, bir üzvü işləyən ailəyə nisbətən daha çox imtiyaz qazanır. Hər il 23 noyabr Yaponiyada Əməyə Minnətdarlığ Günü kimi qeyd edilir.

Avropa ölkələrindən fərqli olaraq Yaponiyada dövlət gəlirlərinin əsas hissəsini gəlirlərdən tutulan vergilər-korporasiyaların mənfəət vergisi və fiziki şəxslərin gəlir vergisi təşkil edir. Bütün vergi daxilolmalarının 64%-i dövlət vergilərinin, 36%-i isə yerli vergilərin payına düşür. Şirkətlərin mənfəət vergisi milli, prefektura və bələdiyyə büdcələrinə ödənilir. Mili verginin dərəcəsi mənfəətin 33.48%-i, prefektura vergisinin dərəcəsi milli dərəcənin 5%-i, yəni mənfəətin 1.67%-i, bələdiyyə vergisinin dərəcəsi isə milli dərəcənin 12.3%-i, yəni mənfəətin 4.12%-dir. Beləliklə, bu vergi üzrə yığımlar mənfəətin təqribən 40%-ni təşkil edir. Yaponiyada bu vergi üzrə kiçik biznes üçün müəyyən güzəştlər nəzərdə tutulmuşdur.

Yaponiyanın dövlət büdcəsi üçün fiziki şəxslərin gəlir vergisinin əhəmiyyəti daha yüksəkdir. Büdcə gəlirində bu verginin payı müxtəlif illərdə 35-42% intervalında olmuşdur. Fiziki şəxslərin gəlir vergisi mütərrəqi şkala əsasında tutulur. Onun minimal

dərəcəsi 10%, maksimal dərəcəsi isə 50%-dir. Əmək haqqı, kəndlilərin və peşə sahiblərinin gəlirləri, daşınmaz əmlakdan əldə edilən gəlirlər, dividentlər, faizlər, pensiyalar və s.-nin məbləği bu vergiyə cəlb olunur.
Gəlir vergisinin hesablanması üçün vergi ödəyicisinin bütün mənbələrdən əldə etdiyi gəlir cəmlənir və sonra müxtəlif güzəştlər nəzərə alınmaqla vergiyə cəlb edilməyən minimum bu məbləğdən çıxılır.
Göründüyü kimi Yaponiyada gəlir vergisinin səviyyəsi xeyli yüksəkdir. Lakin nəzərə almaq lazımdır ki, vergi ödəyicisinin ailə vəziyyətini nəzərə alan, kifayət qədər yüksək vergiyə cəlb edilməyən məbləğ müəyyən edilmişdir, çoxuşaqlı ailələrə əlavə vergi güzəştləri verilir, müalicəyə sərf edilən vəsaitlər vergidən azad olunur.



O, 1949 ildə yaradılıb; mərkəzi aparatdan (1464 işçi), 12 regional büro və 524 yerli şöbədən ibarətdir (55 644 işçi).
İkinci Dünya müharibəsindən sonra və amerikan nümunəsi əsasında yaradılmışdır. O, dünyanın ən güclü və inkişaf etmiş sistemlərindən biridir.

## Yapon banklarının xarici kredit fəaliyyəti internasionallığın gücləndirilməsi istiqamətində baş verir: onlardan bəziləri beynəlxalq kredit mərkəzlərinə çevriliblər

Fiziki və hüquqi şəxslər əmlakın dəyərinin 1.4%-i həcmində əmlak vergisi ödəyirlər. Yaponiyada əmlak 3 ildən bir qiymətləndirilir. Onun tərkibinə daşınmaz əmlak, torpaq, qiymətli kağızlar və s. daxil edilir.
Yaponiya vergi sistemi ölkənin Maliyyə Nazirliyi tərəfinədən idarə edilir. Burada iki bölmə - Vergi bürosu ilə Gömrük və digər dövlət rüsumlarının yığımı ilə məşğul olan büro fəaliyyət göstərir. Onlar təqdiqat və planlaşdırma prosesinə cavabdehlik daşıyırlar (o cümlədən vergi qanunlarının hazırlanması). Bura həm də vergi cinayətlərinin araşdırılması, müfəttişlərin sertifikatlandırılması və s. aiddir.
Yaponiyada vergi siyasətinin tətbiqi, vergi yığımı ilə bilavasitə Milli Vergi Administrasiyası məşğuldur.

Son illər aparıcı banklar arasında Yaponiyanın payı getdikcə azalır. Yapon bankları başda olmaqla güclü maliyyə-sənaye qrupları ABŞ, Qərbi Avropa, Asiya və Avstraliyaya irimiqyaslı sənaye investisiyaları yatırırlar.
Yapon banklarının xarici kredit fəaliyyəti internasionallığın gücləndirilməsi istiqamətində baş verir: onlardan bəziləri beynəlxalq kredit mərkəzlərinə çevriliblər. Yapon banklarının ABŞ və Qərbi Avropa ölkələrinə yerləşdirdikləri qiymətli kağızların miqyası da genişlənir. Yaponiya İnkişaf Bankı xüsusi bankların maraqlı olmadığı iqtisadiyyatın ayrı-ayrı sahələri üçün qısamüddətli güzəştli kreditlər təklif edir.
Müharibədən sonra maliyyə-sənaye qruplarının



verilməsinə qoyulan məhdudiyyətlər və s. Eləcə də hesabat sənədlərinin təqdim olunması ilə bağlı tələbləri də müəyyən edir. Müharibədən sonrakı ilk onilliklərdə Yaponiya pul-kredit siyasətinin klassik alətlərindən aktiv olaraq istifadə etmirdi. Birbaşa olaraq, kredit miqdarına limitlərin qoyulması və faiz dərəcələrinin süni aşağı salınması üstünlük təşkil edirdi. Bu da yüksək iqtisadi artımı təmin etdi.
70-ci illərin ortalarında baş verən dərin və uzunmüddətli iqtisadi böhran nəticəsində dövlətin ölkənin iqtisadi sisteminə təsiri daha da gücləndi və iqtisadiyyatın pul-kredit tənzimlənməsinin rolu artdı.
Ölkənin pul-kredit tənzimlənməsinin əsas orqanlarına daxildir: Yaponiya Bankı,
Maliyyə Naziri və İqtisadi Təşkilatlar Federasiyası. Tənzimlənmənin əsas metodlarına aiddir: borc



yaranması ölkənin bank sisteminin əsas inkişaf xüsusiyyətidir.
Ölkənin bank sisteminə Mərkəzi Bank başçılıq edir. Bankın nizamnamə kapitalının yarısı dövlətə məxsusdur. Səhmdarlar bankın fəaliyyətinin idarə edilməsində iştirak etmir. Mərkəzi banka Prezident və direktorlar heyəti rəhbərlik edir. Direktorlar heyətinə bir qrup vitse-Prezident, Prezident məsləhətçiləri və işlərin həyata keçirilməsi ilə bağlı nəzarət müfəttişləri daxildir.
Yaponiya Bankının idarəetmə metodlarına aiddir: bank fəaliyyətinin lisenziyalaşdırılması; banklar üçün minimal nizamnamə kapitalının müəyyənləşdirilməsi, bank adlarının dəyişdirilməsi, filialların yaradılması və ləğvi ilə bağlı icazənin verilməsi.
Mərkəzi bank likvidliyin minimal səviyyəsini müəyyən edir. Onlara aiddir: bank kapitalının tərkibində xüsusi kapitalın çəkisini müəyyən etməyə imkan verən xüsusi kapital norması, kapitalın borc öhdəliklərinə nisbətini müəyyən edən likvid aktiv norması, mülk norması, iri kreditlərin

faizi və məcburi ehtiyat normasının dəyişdirilməsi, dövlət qiymətli kağızları və xarici valyuta ilə əməliyyatların həyata keçirilməsi, hökumətlə birgə həyata keçirilən inzibati tədbirlər.
70-ci illərdə istifadə olunan inzibati tədbirlər tənzimləmənin bazar metodları ilə əvəz olundu. Banklar üzərində dövlət nəzarəti azaldılmışdı. Lakin dövlətin əlində yüksək riskli və aşağı rentabelli obyektlərin kreditləşməsi üzərində nəzarət funksiyası qalmaqda idi.
Yaponiyanın bank sistemi xüsusi banklar, kredit assosiasiyaları, hökumət-maliyyə institutları, eləcə də

xarici bankların filiallarından ibarətdir.
İkinci dünya müharibəsi başa çatdıqdan sonra bu ölkə digər inkişaf etmiş və sənayeləşmiş ölkələrdən istehsal templərinin sürətli artımı və həmçinin əmək məhsuldarlığına görə seçilirdi. 50-ci illərdən 80-ci illərə qədər olan müddətdə Yaponiyada bu göstəricilərin artım tempi digər ölkələrdəki analoji göstəriciləri iki dəfə üstələyirdi.
Həmin müddət ərzində Yaponiyada ümum daxili məhsul göstəriciləri 1950% artmışdı, bu da ümum daxili məhsul göstəricilərinin orta illik artım tempinin 7,7% olması ilə izah olunur. Yeri gəlmişkən, bu artım tempi həmin dövrdə kifayət qədər aktiv inkişaf edən Birləşmiş Ştatların göstəricilərini dörd dəfə üstələyirdi, əgər Britaniya ilə müqayisə etsək, Yaponiyanın artım tempi dumanlı Albionu 7,7 dəfə geridə qoyurdu.

Ölkə tarixində yalnız iki dəfə Yaponiya iqtisadiyyatı (1975-ci ildə və daha sonra 1993-cü ildə) ÜDM səviyyəsində növbəti azalma ilə üzləşməli oldu.
Bir qayda olaraq, iqtisadi dövrlərin aşağı fazalarında burada yalnız yapon ÜDM-in artım göstəricilərində nisbi azalma tempi müşahidə olunurdu.
Yaponiyanın iqtisadi artım tempindəki bu stabillik və dayanıqlılıq xüsusiyyətlərinə nail olmağının mümkünlüyünün vacib bir səbəbi qismində bütün dövlət iqtisadiyyatı səviyyəsində keçirilən islahatları göstərmək olar, bunun sayəsində kapitalın həddindən artıq yığılması prosesini tarazlaşdırmaq mümkün olmuşdur.
Bundan əlavə, ölkənin iqtisadi artım templəri üzrə belə uzunmüddətli üstün mövqeyə malik olmasını həm də onun istehsalat güclərində irimiqyaslı yeniliklərlə izah etmək olar. Axı bütün bu proseslər dövlətin ümumi sosial və iqtisadi strukturlarında nəzərə çarpacaq qədər irəliləyişlərlə müşayiət olunub.
Əgər Yaponiya iqtisadiyyatının hazırkı perspektivləri barədə danışsaq, onları kifayət qədər optimistik adlandırmaq olar, xüsusən də yaponların daima öz siyasi və iqtisadi mövqelərini gücləndirməyə can atmalarını nəzərə almaq lazımdır və bu siyasət ölkə rəhbərliyi tərəfindən uğurla həyata keçirilir, Yaponiya Sakit Okean və Asiya regionunda çox güclü mövqeyə malikdir.

**Yapon vegilərinin əsas klassifikasiyası**

| Göstəricilər | Milli | Yerli |
|---|---|---|
| Əsas | Korporativ vergilər<br>Gəlir vergisi<br>Vərəsəlik vergisi<br>Bağışlanma vergisi<br>Əmlak vergisi | Yaşayış vergisi<br>Əmlak vergisi<br>Sahibkarlıq vergisi |
| Dolayı | İstehlak vergisi<br>Gömrük rüsumları<br>Qeydiyyat və lisenziya | İstehlak vergisi |




***Ramil Bağırov***